*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 151-160* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.151*

# Folklorda qadınların rituallardakı rolu: ictimai funksiyalar və mədəni simvolika

**Məleykə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail: meleykememmed1@gmail.com
ORCID: 0000-0001-7714-4668

**Annotasiya.** Folklor bir toplumun ortaq yaddaşını, mədəni kimliyini və ənənəvi müdrikliyini əks etdirən mühüm cəmiyyətin elmi sahədir. Bu sahədə qadın və ritualların müqayisəli tədqiqi gender rollarının və mədəni məna qatlarının daha dərindən anlaşılmasına imkan yaradır. Qadınlar rituallarda çox zaman həm yaradıcı, həm də icraçı kimi ön planda dayanırlar. Bu məqalədə qadın və ritualların folklor kontekstində necə iç-içə keçdiyi araşdırılacaq, bu qarşılıqlı təsirin ictimai və mədəni təzahürləri nəzərdən keçiriləcəkdir.
Tədqiqatın məqsədi folklor müstəvisində qadınların rituallarda oynadığı rolları araşdırmaq, bu rolların ictimai quruluş və dəyərlərlə əlaqəli şəkildə necə formalaşdığını üzə çıxarmaqdır. Həmçinin ritualların mədəni yaddaşdakı yeri və qadınların bu proseslərdəki funksional, simvolik və ictimai mənaları təhlil edilərək ənənəvi praktikaların müasir dövrdəki əks-sədaları dəyərləndirilir. Araşdırma müxtəlif mədəni coğrafiyalardan nümunələr əsasında qadınların ritual performanslarının gender rollarını necə yenidən yaratdığını və ya dəyişdirdiyini təhlil etməyi hədəfləyir.
Məqalə folklor mətnlərin öyrənilməsi və rituallardakı gender rollarının analizi üzərində qurulmuşdur. Toplama materialı Azərbaycan, Anadolu, Frakya və Balkanlar kimi müxtəlif coğrafiyalardan ənənəvi praktikaları əhatə edir. Ədəbiyyat icmalı yolu ilə əldə olunan məlumatlar əsasında rituallarda qadının rolu və simvolizmi barədə elmi qiymətləndirmə aparılmışdır.
**Açar sözlər:** folklor, qadın, ritual, ictimai rol, ənənəvi məna

**Məqalə tarixçəsi:** göndərilib – 03.11.2025; qəbul edilib – 18.11.2025

# The role of women in folkloric rituals: social functions and cultural symbolism

**Maleyka Mammadova**
PhD in Philology, Associate Professor
Institute of Folklore of ANAS
E-mail: meleykememmed1@gmail.com
ORCID: 0000-0001-7714-4668

**Abstract.** Folklore constitutes an essential field of study, as it embodies a society's collective memory, cultural identity, and traditional wisdom. Within this framework, the exploration of the interrelation between women and rituals offers deeper insights into gender roles and cultural meanings. Women frequently occupy a central position in rituals, both as creators and performers. This article examines the intertwining of women and rituals in the folkloric context and analyzes the social and cultural manifestations of this interaction.
The primary aim of the study is to investigate the roles assumed by women in rituals within the framework of folklore and to reveal how these roles are shaped in relation to social structures and cultural values. Moreover, the study evaluates the place of rituals in cultural memory and discusses the functional, symbolic, and social meanings attributed to women in these processes, while also addressing the contemporary

reflections of traditional practices. Drawing upon examples from various cultural geographies, the research seeks to analyze the extent to which women's ritual performances reproduce or transform gender roles.
The article is based on the analysis of folkloric texts and the examination of gender roles within rituals. The corpus encompasses traditional practices from diverse regions, including Azerbaijan, Anatolia, Thrace, and the Balkans. Through a literature review, an academic evaluation is provided on the role and symbolism of women in rituals.
**Keywords:** folklore, women, ritual, social role, traditional significance

**Article history:** received – 03.11.2025; accepted − 18.11.2025

## Giriş / *Introduction*

Folklor, bir toplumun kollektiv yaddaşını, kimliyini və ənənəvi müdrikliyini əks etdirən mühüm elmi sahədir. Bu müstəvidə qadın və rituallar arasındakı qarşılıqlı təsir, ictimai gender rollarının və mədəni məna qatlarının dərin təhlilinə imkan yaradır. Qadınlar folklorik rituallarında adətən həm yaradıcı, həm də icraçı kimi mühüm funksiyalar yerinə yetirirlər. Bu məqalədə qadın və ritual münasibətlərinin folklor kontekstində necə qovuşduğu araşdırılacaq və bu qarşılıqlı təsirin sosial-mədəni təzahürləri nəzərdən keçiriləcəkdir.

Tədqiqatın əsas məqsədi folklor müstəvisində qadınların rituallarda öhdəsinə götürdükləri rolların dərindən təhlilidir. Qadınların rituallardakı funksiyaları, həmin funksiyaların ictimai quruluş və mədəni dəyərlərlə əlaqəsi əsasında araşdırılacaqdır. Bundan əlavə, ritualların mədəni yaddaşdakı mövqeyi və qadınların bu proseslərdəki simvolik, funksional və sosial məzmunları da elmi baxımdan qiymətləndiriləcəkdir. Bu kontekstdə araşdırma müxtəlif mədəni coğrafiyalardan gətirilən nümunələr vasitəsilə qadınların ritual performanslarının gender rollarını necə yenidən yaratdığını və ya dəyişdirdiyini təhlil etməyi qarşısına məqsəd qoyur. Ənənəvi praktikaların müasir dövrdəki əks-sədaları da nəzərə alınmaqla qadın və ritual münasibətlərinin dinamik mahiyyəti ortaya qoyulacaqdır.

**Nəzəri çərçivə.** Folklor araşdırmalarında ritualların mənası və funksiyası gender perspektivindən ələ alınır. Strukturçu, feminist və mədəni antropoloji yanaşmalar, qadınların rituallardakı rollarını izah etmək üçün tez-tez istifadə olunan nəzəri çərçivələr arasında yer alır. Bu kontekstdə ritualların simvolik mənaları və sosial dinamikalar üzərindəki təsirləri nəzəri əsas üzərində qiymətləndirilir.

Folklor araşdırmalarında rituallar fərdlərin və icmaların mədəni kimliklərini qurmasında və sosial strukturların davamlılığını təmin etməsində mühüm rol oynayır. Ritualların mənası və funksiyası gender perspektivindən araşdırıldıqda, qadınların bu proseslərdəki rolları ənənəvi və müasir sosial strukturlar kontekstində müxtəlif aspektlərdən qiymətləndirilir. Bu çərçivədə ritualların gender rollarını necə yenidən yaratdığı və ya dəyişdirdiyi müxtəlif nəzəri yanaşmalar əsasında təhlil olunur.

Xüsusilə strukturçu yanaşma ritualların cəmiyyətin əsas strukturlarını və kollektiv yaddaşı əks etdirən tənzimləyici sistemlər olduğunu irəli sürür [8]. Strukturçu baxışa görə, ritualların mənası onların daxili quruluşunda və əks sistemlərində gizlidir. Qadınlar bu quruluşlarda adətən doğurqanlıq, təbiət, ev sahəsi və müqəddəslik kimi simvollarla əlaqələndirilərək ritualların mənəvi dünyasında mərkəzi yer tuturlar [6].

Feminist nəzəriyyə isə ritualların patriarxal cəmiyyətlərdə gender iyerarxiyalarını möhkəmləndirdiyini və ya bunlara qarşı müqavimət sahəsi yaratdığını irəli sürür [3; 18]. Xüsusilə rituallarda qadınların oynadığı rolların araşdırılması, genderin mədəni konstruksiyasını anlamaqda mühüm məlumat təmin edir. Simone de Beauvoir [2] qadınların tarixi prosesdə "başqa" kimi mövqelən-

dirildiyini və bu vəziyyətin rituallarda da davam etdiyini qeyd edir, Judith Butler [4] isə performativ gender nəzəriyyəsi çərçivəsində ritualların genderin yenidən yaratdığı sahə olduğunu vurğulayır. Digər tərəfdən, mədəni antropologiya, ritualların sosial inteqrasiya və aidiyyət hissi yaratmadakı roluna diqqət çəkir [18]. Victor Turnerin rituallar və liminallıq (keçid vəziyyəti, aralıq mərhələ) nəzəriyyəsinə görə, rituallar fərdləri bir statusdan digərinə keçid zamanı istiqamətləndirir və eyni zamanda sosial qrupların kimliyini möhkəmləndirir. Bu prosesdə qadınlar, xüsusilə doğum, evlilik və ölüm kimi keçid rituallarında mühüm rollar oynayaraq kollektiv yaddaşın daşıyıcısına çevrilirlər [20]. Bu nəzəri çərçivə əsasında, bu işdə qadınların rituallarda oynadığı rollar həm simvolik, həm də sosial funksiyalar baxımından qiymətləndiriləcəkdir. Strukturçu, feminist və mədəni antropoloji yanaşmalar əsas götürülərək, qadınların rituallar vasitəsilə sosial normaları necə formalaşdırdığı və bu proseslərin müasir sosial strukturlara təsirləri təhlil olunacaqdır.

**Metod.** Bu iş folklor mətnlərinin təhlili və müqayisəli mədəni araşdırma metodlarına əsaslanır. Azərbaycan, Anadolu, Frakya və Balkanlar kimi müxtəlif mədəni coğrafiyalardan əldə olunan məlumatlar ədəbiyyat icmalı və sahə tədqiqatları yolu ilə qiymətləndirilmişdir. Qadınların rituallardakı rollarını müəyyən etmək məqsədilə şifahi mətnlər və müşahidələrdən istifadə olunmuşdur.

## Əsas hissə / *Main part*

Qadınların rituallardakı funksiyaları araşdırıldıqda, onların doğum, evlilik və ölüm kimi mühüm keçid rituallarında aktiv rollar oynadıqları müşahidə olunur. Həmçinin, bolluq, məhsuldarlıq və sağlamlıq rituallarında qadınların həm icraçı, həm də məlumat, bilik daşıyıcısı olduqları müəyyən edilmişdir. Nəticələr göstərir ki, qadınların rituallardakı mövqeyi sosial cinsiyyət normaları ilə formalaşır və zamanla müəyyən dəyişikliklərə məruz qalır.

Folklorda qadın və ritualların sosial rolu: Qadınlar tarixi proses ərzində ritualların formalaşmasında mühüm rol oynamış, bir çox ənənəvi praktikada mərkəzi fiqur olmuşlar. Doğum, evlilik, ölüm, bolluq, məhsuldarlıq və sağlamlıq kimi dövri rituallarda qadınlara verilən funksiyalar cəmiyyətin mədəni quruluşunu və dəyərlərini anlamaq üçün əhəmiyyətli ipucları təqdim edir. Rituallar qadının statusunu müəyyən edən və sosial rollarını yenidən yaradan sistermlərdir.

Ritualların folklor yaddaşında yeri: Folklorik ritualları yalnız sosial quruluşu qorumaqla kifayətlənmir, həmçinin ənənəvi bilikləri nəsildən-nəslə ötürən mühüm elementlər kimi çıxış edir. Qadınlar bu ritualların həm icraçısı, həm də daşıyıcısı kimi sosial və mədəni yaddaşın əsas fərdləridir. Bu kontekstdə, qadınların rituallardakı rolları simvolik mənalar daşıyır və kollektiv şüurda dərin yer tutur.

Fərqli coğrafiyalarda qadın və rituallar: Azərbaycan, Anadolu, Frakya və Balkanlar kimi müxtəlif mədəni coğrafiyalarda qadınların rituallardakı rolları və bu ritualların mənəvi dünyasına təsirləri araşdırıldıqda, hər bir cəmiyyətin köklü ənənələrlə formalaşmış həm oxşar, həm də fərqli motivlər daşıdığı müşahidə olunur. Qadınların rituallardakı vəzifələri sosial cinsiyyət rolları ilə birlikdə formalaşaraq ənənəvi quruluşun bir hissəsi olmağa davam edir.

Nəticə olaraq, qadınların rituallardakı funksiyaları araşdırıldıqda, onların cəmiyyətlərin sosial quruluşu və mədəni dinamikaları ilə müəyyənləşmiş konkret rolları yerinə yetirdiyi görünür. Folklor rituallarında qadınlar həm ənənəvi rolların daşıyıcısı, həm də ritualların icraçısı kimi mühüm mövqe tuturlar. Xüsusilə doğum, evlilik və ölüm kimi keçid rituallarında qadınların aktiv rol oynadığı müəyyən edilmişdir.

**Keçid rituallarında qadınların rolu.** Keçid ritualları fərdlərin bir statusdan digərinə keçidini simvollaşdıran və cəmiyyətin kollektiv yaddaşında mühüm yer tutan mərasimlərdir [20]. Qadınlar bu ritualların həm təşkilatçısı, həm də iştirakçısı olaraq müxtəlif rollar öz üzərlərinə götürürlər:

**Doğum rituallarında qadının rolu.** Doğum qadının bioloji və sosial baxımdan ən önəmli proseslərindən biri hesab edilir və bu prosesə bağlı rituallarda adətən qadınlar ön planda olurlar. Hamiləlik dövründə ananın qorunması, doğumun rahat keçməsi üçün tətbiq olunan tilsimli və dualı rituallar, lohusalıq (zahılıq) dövründə isə ana və uşağın sağlamlığını təmin etmək üçün həyata keçirilən üsullar qadınların bilik və təcrübələri ətrafında formalaşır [19]. Xüsusilə Azərbaycan, Anadolu və Balkanlarda, doğumdan sonra qadına "qırx çıxarma" kimi rituallarla dəstək verilməsi qadınların kollektiv həmrəyliyinin göstəricisi kimi qiymətləndirilir [11, s.658-660].

Doğum prosesinin idarəsi tamamilə qadınların əlindədir. Həkim və ya təcrübəli qadınlar doğumun rahat keçməsi üçün dualarla ənənəvi üsullardan istifadə edirlər. Doğumdan sonra lohusa (zahı) və uşağın "qırxı çıxana" qədər qorunması üçün müxtəlif rituallar həyata keçirilir. Bu cür inanclar və rituallar sosial yaddaşda hələ də güclü yer tutur. Müasir dünyada bəzi inanclar və rituallar unudulsa da, bəziləri mədəni irs kimi fərqli formalarda yaşamağa davam edir.

Doğum prosesində qadınlar adətən cəmiyyətin həmrəyliyi təmin edən icraçıdılar. Azərbaycan və Türkiyədə doğum rituallarında aşağıdakı məqamlar ön plana çıxır:

Həkim və təcrübəli qadınların rəhbərliyi: Doğum zamanı və sonrasında qadınların dəstəkləyici rolu böyükdür. Kişilər adətən prosesin xaricindədir [11; 15].

Uşağın ilk hamamı: Ənənəvi olaraq ailə böyükləri, xüsusilə nənə və ya qayınana tərəfindən həyata keçirilir [11; 15].

Uşağın "qırxı çıxana" qədər qadın həmrəyliyi: "Qırx basması" zahı və uşağı nəzərdən qoruma məqsədli rituallardır (uşağın beşiyinə iynə, sarımsaq və ya üzərlik otu qoymaq, göz muncuğu taxmaq, tüstüləmə, üzərlik otu yandırma, dualar oxuma və s.). Cin, alarvadı və digər pis ruhlardan qorunma üsulları (Azərbaycan və Türkiyədə zahını qorumaq üçün qırmızı ip bağlamaq, bıçaq, qayçı və s. dəmir əşyalar qoymaq, türbələri ziyarət, dualar yazdırmaq və s.) adətən qadınlar tərəfindən həyata keçirilir. Xüsusilə Anadolu və Azərbaycanda "ocaqlı qadınlar" adlanan şəfaçı qadınların bu rituallarda mühüm rolu vardır. Uşağın, zahının qorunması üçün dualar və tüstüləmə də qadınlar tərəfindən icra olunur [9; 15; 16]. Qadınlar, xüsusilə doğum, zahılıq və uşaqları qoruma kontekstində bu ritualları həyata keçirən əsas şəxslər olmuşdur.

Ənənəvi inanclarda alarvadı, cin, nəzər və pis enerjilərdən qorunma ritualları əsasən qadınların öhdəliyində olmuşdur. Bununla belə, bəzi hallarda kişilər də bu rituallara cəlb olunur.

Molla və mollalıq ənənəsi. Cin çıxarma, sehr pozma kimi ciddi rituallarda kişi mollaların (xocaların) aktiv rol oynadığı müşahidə olunur. Son dövrlərdə qadınların da bu sahələrdə kişi mollalardan geri qalmadığı müşahidə edilmişdir.

Qurban kəsmə. Kişilər, xüsusilə pis enerjidən qorunmaq üçün adaq (nəzir) qurbanı və ya qurban kəsmə kimi rituallarda iştirak edirlər.

Türbə ziyarətləri. Kişilər də qadınlar kimi türbələri ziyarət edərək ailələri üçün dualar edirlər, lakin qadınlar adətən bu mənəvi ritualları daha aktiv şəkildə davam etdirirlər. Bu rituallar, sosial cinsiyyət rollarının mədəni baxımdan necə formalaşdığını və qorunma üsullarının kim tərəfindən həyata keçirildiyini göstərir. Doğum zamanı kişilərin bayırda gözləməsi və alarvadının doğumu əngəllədiyi inancı, sosial gender rollarının rituallara necə əks olunduğunu göstərən mühüm bir nümunədir.

Alarvadı və doğum ritualları: Azərbaycan və Anadoluda alarvadı (alqarısı, albastı, al anası) ilə bağlı inanclar geniş yayılmışdır. Bu inanclara görə alarvadı, xüsusilə zahı və yeni doğulan uşaqları narahat edən pis varlıqdır. Sözügedən varlıqdan qırxlı ana və uşağı qorumaq üçün də müxtəlif rituallar həyata keçirilir. Bu rituallar sosial gender rollarının mədəni üsullarda necə əks olunduğunu göstərən önəmli elementlərdir. Doğum zamanı kişilər adətən evin içində deyil, həyət və ya çöldə gözləyir. Əgər doğum gecikirsə və ya ana çətinlik çəkirsə, bunun alarvadı tərəfindən əngəlləndiyinə inanılır. Alarvadı qorxutmaq məqsədilə kişilər havaya atəş açır, ucadan səs çıxararaq onu uzaqlaşdırmağa çalışırlar. Quran oxumaq, azan oxumaq kimi üsullar da doğum prosesini

asanlaşdırmaq və pis varlıqları uzaqlaşdırmaq üçün həyata keçirilir. Bu üsul və ritualların qadınlarla bərabər kişilər tərəfindən də icra olunduğu məlumdur [12].

**Evlilik rituallarında qadınların rolu.** Evlilik fərdin sosial statusunda əhəmiyyətli dəyişiklik yaradan bir keçid mərhələsi hesab edilir və qadınlar bu prosesin həm mərkəzində, həm də icraçısı kimi iştirak edirlər. Gəlinin hazırlıq mərhələsindən başlayaraq, toy və evlilik sonrası rituallara qədər qadınlar həm əvvəlki nəsillərdən gələn bilik və ənənələri ötürərək, həm də yeni gəlinin cəmiyyət tərəfindən qəbul edilməsini təmin edərək funksional rol oynayırlar. Azərbaycan, Frakya və Anadolu bölgələrində müşahidə olunan "xına gecəsi" ritualları bu baxımdan qadın həmrəyliyini və kollektiv şüuru əks etdirən mühüm mərasimlərdəndir [13; 14; 17]. Lakin modernləşmə prosesi ilə birlikdə xına gecələri getdikcə daha əyləncəli və nümayişkaranə xarakter almış, bəzi bölgələrdə isə kişilərin də qatıldığı "xına gecələri" təşkil edilməyə başlamışdır. Ənənəvi cinsiyyət ayrı-seçkiliyi xüsusilə böyük şəhərlərdə qarışıq fəaliyyətlərlə əvəz olunmağa başlamışdır. Gəlin alma mərasimində isə əsas rol çox vaxt kişilərin üzərinə düşür. Bəyin ailəsi və dostları gəlinin ata evindən alınması üçün gəlir və bu zaman qadınlar adətən evin içində, kişilər isə həyətdə olur. Bu ritual sosial gender rollarının ənənəvi şəkildə necə formalaşdığını göstərən əhəmiyyətli nümunədir. Bu çərçivədə toy ritualları yalnız fərdi bir birləşmə deyil, eyni zamanda sosial cinsiyyət rollarının möhkəmləndiyi və mədəni normaların ötürüldüyü bir sahə kimi də önəm qazanır. Azərbaycan və Türkiyədə toy ritualları bəzi mərhələlərdə qadın və kişilərin birlikdə iştirak etdiyi, bəzi mərhələlərdə isə sosial cinsiyyət ayrı-seçkiliyinə əsaslanan ənənəvi tətbiqlərin həyata keçirildiyi bir struktura malikdir.

Azərbaycan və Anadolu toylarında sosial gender rolları müəyyən rituallar çərçivəsində formalaşır və bu prosesdə qadınlar və kişilər fərqli funksiyalar yerinə yetirirlər. Toyun bəzi mərhələlərində qadın və kişilər birlikdə əylənir, bəzi mərhələlərdə isə sosial gender ayrı-seçkiliyinə əsaslanan ənənəvi üsullar ön plana çıxır. Bu ayrı-seçkiliyin ən bariz nümunələrindən biri xına gecəsidir. Həm Azərbaycanda, həm də Anadoluda xına gecəsi ənənəvi olaraq yalnız qadınların iştirak etdiyi bir ritualdır. Gəlinin yaxın qadın qohumları və dostları bir araya gələrək yemək yeyir, musiqi ilə rəqs edir, xına yaxır və hakuşkalar (manilər) söyləyirlər. Gəlinin ata evindən ayrılmasının yaratdığı emosional atmosfer bu ritualda vurğulanır, xına gecəsi həmçinin qadın həmrəyliyinin bir simvolu kimi qəbul edilir. Eyni zamanda qadınların bir araya gəlib əyləndiyi bir gecə kimi də qiymətləndirilir [14; 17].

Toyun digər mərhələlərində isə sosial gender rolları fərqli ola bilər. Toy mərasimi adətən qadın və kişilərin birlikdə əyləndiyi bir mühitdə keçirilir. Lakin bəzi rəqs və musiqi fəaliyyətləri ənənəvi olaraq genderə görə ayrılmış ola bilər. Məsələn, həm Azərbaycanda, həm də Anadoluda bəzi xalq rəqsləri yalnız kişilər və ya yalnız qadınlar tərəfindən ifa edilərkən, yallı kimi rəqslər də qadın və kişilərin birlikdə oynadığı rəqslərdəndir. Anadoluda horon, halay, zeybək və qaşıq oyunları kimi xalq rəqsləri bölgələrə görə fərqlilik göstərir; bəziləri yalnız kişilər (məsələn, zeybək) və ya yalnız qadınlar tərəfindən, bəziləri isə kollektiv şəkildə icra edilir. Bu cür rəqslər toyların əyləncəli atmosferinə töhfə verir və sosial gender rollarının rituallar vasitəsilə necə formalaşdığını göstərir.

Azərbaycan və Türkiyədə toy rituallarının bir hissəsində qadın və kişilər birlikdə iştirak edərkən, bəzi rituallar yalnız qadınlar tərəfindən icra olunur ki, bu da sosial gender normalarının toy rituallarına necə əks olunduğunu göstərir. Lakin modernləşmə və şəhərləşmə ilə birlikdə bu ayrı-seçkiliklər tədricən yumşalır və bəzi ənənələr yenidən şərh olunur. Xüsusilə gənc nəsillər toy rituallarına daha çevik və bərabərhüquqlu yanaşır, qadın və kişilərin birlikdə iştirak etdiyi toy mərasimləri geniş yayılır. Bu dəyişikliklər göstərir ki, rituallar yalnız mədəni irs deyil, həm də sosial quruluşdakı dəyişikliklərin bir əksidir.

**Ölüm rituallarında qadınların rolu.** Ölüm, fərdin fiziki varlığının sona çatması ilə yanaşı, sosial mənada da əhəmiyyətli bir dönüşüm prosesidir. Yas ritualları, mərhumun ardından edilən anmalar və ruhun obir dünyaya keçidini asanlaşdırdığına inanılan mərasimlərdə qadınlar ağıçılar, yemək hazırlayanlar və icmaları bir araya gətirən fiqurlar kimi ön plana çıxırlar. Azərbaycan və

Orta Asiya mədəniyyətlərində qadınların ölüm rituallarında ağı oxuyaraq mərhumları şərəfləndirməsi bu rituallardakı funksiyalarını möhkəmləndirir [10].

Azərbaycan və Türkiyədə yas mərasimləri ənənəvi olaraq sosial gender rollarına əsaslanan bir iş bölgüsünə malikdir. Hər iki cəmiyyətdə kişi və qadınlar yas prosesində fərqli sahələrdə iştirak edir və rituallarda özünəməxsus funksiyalar yerinə yetirirlər. Lakin bu ənənəvi ayrı-seçkilik şəhərləşmə və modernləşmə ilə birlikdə zamanla dəyişməyə başlamışdır.

Azərbaycanın yas mərasimləri gendər əsaslanan ayrı-seçkiliklə təşkil olunur. Kişilər və qadınlar üçün ayrı salonlar hazırlanır və yas prosesi dini və mədəni qaydalara uyğun şəkildə həyata keçirilir. Kişilərin məclisində kişi dini xadim (molla/xoca) Quran oxuyur və dini söhbətlər edir; qadınların məclisində isə qadın molla mərsiyələr oxuyur, ağılar söyləyərək kollektiv yas prosesini gücləndirir. Qadınların molla tərəfindən ağladılması bu ritualların ayrılmaz bir hissəsi kimi qəbul edilir [İ-9].

Yas məclisləri səhər saatlarında başlayır və günorta yeməyi ilə başa çatır. Mərasimin sonunda mərhumun ruhuna bağışlanmaq üçün Qurandan müxtəlif surələr (Fatiha, İhlas, Yasin) oxunur. Bu mərasimlərdə sosial gender rolları açıq şəkildə müşahidə olunur.

Türkiyədə də oxşar şəkildə, yas mərasimlərində sosial gendərə əsaslanan ayrı-seçkilik mövcuddur. Ənənəvi Anadolu mədəniyyətində kişilər məscid və ya taziye evlərində toplaşaraq dini dualar edib, Quran xətm edərkən, qadınlar evdə bir araya gəlib ağılar oxuyur və mərhumun xatirələrindən danışırlar. Xüsusilə Cənub-Şərqi və Şərqi Anadolu bölgələrində qadınların yas rituallarında daha emosional və dramatik rol oynadığı müşahidə olunur [İ-3].

Azərbaycan və Türkiyədə yas mərasimləri sosial gender rollarına əsaslansa da, bu rolların dəyişməyə başladığı müşahidə olunur. Şəhərləşmə, modernləşmə və qadınların ictimai həyatda daha aktiv rol oynamağa başlaması ilə bu rituallarda qadın və kişilərin daha bərabər şəkildə iştirak etdiyi mərasimlər genişlənməkdədir. Bu nümunələr göstərir ki, rituallar yalnız dini və mədəni üsullar deyil, həm də sosial gender rollarını möhkəmləndirən və ya dəyişdirən strukturlar hesab olunur. Müasir dünyada qadınların bu rituallarda daha aktiv rol oynaması və ənənəvi sosial gender ayrı-seçkiliyinin yumşalması, ritualların dinamik təbiətini və dəyişən sosial normaları ortaya qoyur.

**Bərəkət, bolluq və sağlamlıq rituallarında qadınların mövqeyi.** Qadınların yalnız keçid rituallarında deyil, eyni zamanda təbiət və sosial rifaha yönəlmiş rituallarda da aktiv rol oynadığı müşahidə olunur.

Bərəkət ritualları. Qadınlar, kənd təsərrüfatı sahəsində məhsuldarlıq və bolluqla əlaqəli rituallarda mərkəzi rola malikdir. Anadolu və Azərbaycanda baharın gəlişini simvolizə edən Xıdır-Əlləz, Novruz və oxşar bayramlarda qadınların bolluq gətirdiyinə inanılan tədbirləri həyata keçirməsi qadınların təbiət ilə əlaqəsini və məhsuldarlığını simvolizə edir. Atəşdən tullanma, bağçanın təmizlənməsi kimi rituallarda həm qadınlar, həm də kişilər iştirak etsələr də, bayram hazırlıqları, zəngin bayram süfrəsinin qurulması, ev təmizliyi, bayram şirniyyatlarının (şəkərbura, paxlava və s.) hazırlanması, yumurta boyama, səməni cücərtmə, xoş sözlərin söylənməsi və digər ritual ənənələr əsasən qadınların öhdəliyindədir [İ-2, 4, 8].

Şəfa ritualları. Ənənəvi xalq təbabətində qadınların bilik daşıyıcı və şəfa verici rollar yerinə yetirdiyi müəyyən edilmişdir. Xüsusilə bitki mənşəli dərmanlar, otlarla müalicə üsulları, nəzər və pis enerjidən qorunma ritualları qadınlar tərəfindən tətbiq edilərək nəsildən-nəslə ötürülür [6; İ-1, 5, 7]. Bu vəziyyət qadınların yalnız ailə daxilindəki baxım funksiyalarını deyil, eyni zamanda ictimai sağlamlığa təsirlərini də vurğulayır.

**Rituallarda qadın rollarının dəyişimi.** Araşdırmalar göstərir ki, qadınların rituallardakı mövqeləri sosial cinsiyyət normaları ilə formalaşır və zamanla müxtəlif dəyişikliklərə məruz qalır. Xüsusilə modernləşmə, şəhərləşmə və sekulyarlaşma prosesləri ilə ənənəvi ritualların bəzi elementləri ya itmiş, ya da dəyişmişdir. Məsələn, kənd yerlərində hələ də davam edən doğum və evlilik ritualları, şəhər mühitlərində daha fərdi və sadə formalar almışdır. Bununla belə, bəzi

rituallar müasir dünyada yenidən mənalandırılmış və qadınların mədəni kimliklərini qoruma vasitəsi olaraq funksiyasını davam etdirmişdir. Məsələn, feminist hərəkatlar qadınların rituallardakı rollarını sorğulayan və onları gücləndirən yeni yanaşmalar formalaşdırmışdır [3].

Bugünkü dövrdə qadınların rituallarda aktiv iştirak etdiyi, lakin bu ritualların sosial gender bərabərliyi kontekstində yenidən şərh edildiyi müşahidə olunur. Məsələn, əvvəllər yalnız kişilər tərəfindən həyata keçirilən dini və sosial rituallara qadınların da qatılması bu dəyişimin mühüm göstəricisidir. Azərbaycanda və Türkiyədə ənənəvi olaraq kişilərin rəhbərlik etdiyi dəfn mərasimləri və qurban mərasimləri, artıq qadınların da daha aktiv iştirak etdiyi sahələrə çevrilmişdir. Xüsusilə mövludlar, yas mərasimləri və qurban rituallarında qadınlar əvvəllər daha çox dəstəkləyici rol oynayırdılarsa, indi bu ritualların təşkilində və icrasında daha əhəmiyyətli rol oynayırlar. Bənzər şəkildə, Türkiyədə Xıdırəlləz və Novruz kimi bahar bayramlarında qadınların əvvəllər yalnız müəyyən sahələrlə məhdudlaşdırıldığı müşahidə edilirdi; günümüzdə isə qadınlar bu rituallarda liderlik edir və icma içindəki mövqelərini gücləndirirlər. Azərbaycanda isə Novruz bayramı çərçivəsində keçirilən tədbirlərdə qadınlar həm ənənəvi yeməklərin hazırlanmasında, həm də simvolik ritualların icrasında daha böyük söz sahibidirlər. Bu nümunələr göstərir ki, rituallar yalnız mədəni irs deyil, həm də sosial dəyişiklik üçün vasitə funksiyasına malikdir.

**Ənənələrin yaşadılmasının önəmi.** Ənənələr, rituallar və mərasimlər bir cəmiyyətin kimliyini formalaşdıran əsas elementlərdir. Bunlar yalnız keçmişdən gələn vərdişlər deyil, həm də sosial həmrəyliyi təmin edən, fərdləri bir arada saxlayan və mədəni davamlılığı təmin edən mühüm struktur elementləridir.

Mədəni kimlik və aidiyyat. Ənənələr, bir cəmiyyəti digər cəmiyyətlərdən fərqləndirən ən önəmli ünsürlərdəndir. Xüsusilə qloballaşma dövründə mədəni kimliyin qorunması cəmiyyətlərin özlərini ifadə etmə üsullarından biridir. Doğum, evlilik və ölüm kimi keçid ritualları fərdin cəmiyyət içindəki yerini müəyyən edir və ona aidiyyat hissi qazandırır.

Sosial bağları gücləndirmə. Rituallar insanları bir araya gətirir və sosial həmrəyliyi gücləndirir. Doğum, toy və yas mərasimləri ailədaxili və sosial əlaqələri möhkəmləndirən mühüm tədbirlərdir. Novruz, Ramazan, Xıdır kimi bolluq və bərəkət ritualları insanları ortaq dəyərlər ətrafında birləşdirir.

Mədəni irs və gələcək nəsillərə ötürülmə. Ənənələrin qorunması mədəni irsin gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb edir. Modernləşmə prosesində bir çox ritual unudulma təhlükəsi ilə üzləşsə də, bunlar yenilənərək dini və mənəvi elementlərlə birləşərək yaşamağa davam edir.

Ruhi və psixoloji təsirlər. Rituallar fərdlərin həyatındakı dönüş nöqtələrinə mənəvi məna qazandırır və bu prosesləri daha əhəmiyyətli edir. Doğum sonrası bərəkət ritualları, zahı və körpənin qorunması üçün üsullar, yas mərasimlərində ağılar fərdlərin çətin dövrlərdə dəstək hiss etməsini təmin edir. Ənənələrin davam etməsi yalnız keçmişə bağlı qalmaq demək deyil; əksinə, keçmişdən güc alaraq gələcəyə əmin addımlarla irəliləmək deməkdir.

Nəticə olaraq, keçid ritualları (doğum, evlənmə, ölüm), bolluq və bərəkət mərasimləri, xalq təbabəti üsullarında qadınların rolu ənənəvi olaraq böyük olmuşdur. Qadınlar həm birbaşa ritualları icra edən, həm də bu ritualların ötürülməsini təmin edən mədəni daşıyıcılar kimi əhəmiyyətli mövqeyə malikdirlər. Əldə olunan nəticələr göstərir ki, qadınlar rituallarda həm qoruyucu, həm də dəyişdirici rola sahibdir. Rituallar qadınların sosial rollarını möhkəmlətməklə yanaşı, bəzən bu rolların dəyişməsinə də zəmin yaradır. Qadınlar rituallar vasitəsilə kollektiv yaddaşı ötürür və sosial strukturun davamlılığını təmin edirlər. Lakin modernləşmə prosesilə bu rituallarda qadın rolları dəyişməyə başlamış və bəzən ənənəvi mənalarını itirmişdir. Bu vəziyyət, ritualların və qadın rollarının sosial dəyişiklik proseslərinə həssas strukturlar olduğunu göstərir. Çoxsaylı ənənəvi rituallar dini elementlərlə birləşdirilərək bu gün də mövcudluğunu qoruyur. Bu da göstərir ki,

mədəni praktikalar tamamilə itmir; əksinə, yenidən formalaşaraq dini və modern elementlərlə birləşərək davam edir.

## Nəticə / *Conclusion*

Qadınların folklor rituallarındakı rolları sosial gender anlayışları və mədəni mənaların vacib bir komponenti kimi ortaya çıxır. Bu rollar həm ənənələrin qorunmasında, həm də sosial dəyişikliklərin əks etdirilməsində kritik əhəmiyyət kəsb edir. Gələcəkdə aparılacaq daha dərin tədqiqatlar qadın və rituallar arasındakı münasibətin müxtəlif mədəni kontekstlərdə necə formalaşdığını daha ətraflı şəkildə ortaya qoyacaqdır.

Bu məqalə, folklor rituallarında qadının oynadığı rolların sosial gender, ənənə və mədəni yaddaş kontekstində necə mənalandığını ortaya qoyur. Qadınlar rituallarda həm yaradıcı, həm də icraçı kimi iştirak edir və bu prosesdə sosial gender rollarının yenidən yaranmasına və dəyişməsinə vasitəçilik edirlər. Azərbaycan, Anadolu, Frakya və Balkanlar kimi fərqli coğrafiyalardan toplanan məlumatlar göstərir ki, qadının rituallardakı rolu sosial struktur, inanc sistemləri və tarixi proseslərdən təsirlənir. Ənənəvi rituallar qadınlar vasitəsilə nəsildən-nəslə ötürülür və mədəni davamlılığın təmin olunmasında kritik funksiyaya malikdir.

Əldə olunan nəticələr qadın və rituallar arasındakı münasibətin sosyokültürlü dimensiyasını (ictimai-mədəni aspekti) açıq şəkildə göstərir. Qadınlar rituallarda yalnız icraçı deyil, həm də bu mərasimlərin təşkilatçısı və mənalandırıcısıdır. Rituallar qadının cəmiyyətdəki mövqeyini möhkəmləndirir və bəzən ona dəyişmə imkanları yaradır. Lakin modernləşmə və qloballaşma prosesləri ilə bəzi ənənəvi rituallar unudulmağa məruz qalır və ya dəyişir. Bu, sosial gender rollarının da yenidən formalaşmasına səbəb olur.

Qadınların rituallardakı roluna dair tənqidlərdən biri bəzi ritualların patriarxal quruluşu gücləndirməsidir. Bununla belə, bəzi rituallar qadına güc və səlahiyyət təmin edir, ona sosial həyatda müəyyən sahələrdə söz haqqı verir. Bu, ritüalların yalnız təzyiq vasitəsi kimi qiymətləndirilməməsi, həm də müqavimət və dəyişiklik mexanizmi kimi nəzərdən keçirilməsinin vacibliyini göstərir. Bu işin nəticələrinə əsaslanaraq aşağıdakı tövsiyələr irəli sürülə bilər:

Ritualların sənədləşdirilməsi və qorunması: Ənənəvi ritualların itirilməməsi üçün şifahi tarix və sahə tədqiqatları intensivləşdirilməlidir.

Qadın və ritual əsaslı akademik tədqiqatlar: Qadının rituallardakı rolu və bu rolun sosial təsirləri ilə bağlı disiplinlərarası araşdırmalar aparılmalıdır.

Modernləşmə və ritualların transformasiyası: Ənənəvi ritualların müasir cəmiyyətdəki yeni mənaları və dəyişiklikləri ilə bağlı araşdırmalar dəstəklənməlidir.

Təhsil və məlumatlandırma proqramları: Qadının rituallardakı rolu barədə cəmiyyətdə məlumatlılığı artıracaq tədris proqramları hazırlanmalıdır.

Sosial cinsiyyət perspektivi ilə yeni yanaşmalar: Rituallardakı cinsiyyət rollarının tənqidi perspektivdə araşdırılması sosial dəyişmə prosesinə töhfə verəcəkdir.

Nəticə etibarilə, folklor ritualları sosial strukturu formalaşdıran və dəyişdirən elementlər kimi önəm daşıyır. Qadınların bu prosesdəki mövqeyi həm ənənəvi rolları qoruyur, həm də bu rolları yenidən şərh edən sistemi göstərir. Bu baxımdan, folklor rituallarının qadınlarla bağlı tədqiqatları, sosial gender analizləri ilə daha dərindən öyrənilməsi zəruridir.

## Ədəbiyyat / *References*


1. Akyar N. "Zerdüştîlikte ahiret inancı ve cenaze törenleri". Yüksek Lisans Tezi, Uludağ Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2018.
2. Beauvoir S. Le deuxième sexe [The second sex]. – Gallimard: 1949.

3. Butler J. Gender Trouble: feminism and the subversion of identity. Routledge, 1990.
4. Butler J. Bodies that matter: on the discursive limits of “sex”. Routledge, 1993.
5. Deniz Ş. N. “Hinduizm'de evlilik ritüeli”. Yüksek Lisans Tezi. – Sakarya: Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2021.
6. Douglas M. Natural symbols: explorations in cosmology. Routledge, 1970.
7. Kutlutürk C. “Hinduizm'de cenaze törenleri (Antyeşti Samskara)”. e-Şarkiyat İlmi Araştırmalar Dergisi, 8 (1), 2026.
8. Lévi-Strauss C. Structural anthropology. Basic Books, 1963.
9. Memmedova M. Batı Azerbaycan halk kültüründe nazardan korunma yöntemleri ve ritüeller. ASES II. International Culture, Art and Literature Congress. – Izmir: ASES Publication, 2025.
10. Memmedova M. Death rituals in Karabakh folklore: The role of beliefs and traditions in the construction of cultural identity. ARCENG III. International Scientific Research Congress. – Istanbul: ARCENG Publications, 2025.
11. Memmedova M. Balkanlardan Azerbaycan’a Türk halk kültüründe doğum ritüelleri. 2. Uluslararası Balkanlarda Türkçe Öğretimi ve Türkoloji Sempozyumu Bildiriler Kitabı. – İstanbul: Türkiye Maarif Vakfı, Tiran New York Üniversitesi Yayınları, 2024.
12. Memmedova M. Azerbaycan ve Anadolu folklorunda kırkbasma ve albasmadan korunma ritüel ve uygulamaları. Klasik Divan Dil, Kültür ve Edebiyat Araştırmları Dergisi (Journal of Language, Culture and Literature Researches), 1(1), 2024.
13. Memmedova M. Azerbaycan, Trakya ve Anadolu folklorunda düğün merasimi oyun ve gösterileri. Türkoloji ve Sosyo-Kültürel Araştırmalar Dergisi (TURSKA), 1(1), 2024. DOI: https://zenodo.org/doi/10.5281/zenodo.14549100
14. Memmedova M. Düğün töreni oyunlarının kültürel yansımaları: Nahçıvan ve Trakya örneklerinde geleneksel performansların toplumsal anlamları. Uluslararası Trakya Bilimsel Araştırmalar Kongresi. Edirne: ASES Publications, 2024.
15. Memmedova M. Azerbaycan ve Anadolu`da kırklama ritüelleri. Azerbaijan İnternational Congress of Scientific Research. Sheki: IKSAD Publications, 2023.
16. Memmedova M. Azerbaycan ve Anadolu folklorunda nazardan korunmak için yapılan uygulama ve ritüeller. 5.International Bahtiyar Vahabzade Turkish History, Culture and Literature Congress. Sheki: IKSAD Publications, 2023.
17. Memmedova M. Azerbaycan ve Anadolu kına gecesi. Motif Akademi Halkbilimi Dergisi, 10 (9), 2017.
18. Ortner S. B. (1974). “Is female to male as nature is to culture?” Feminist Studies, 2 (1), 1974.
19. Turner V. The ritual process: structure and anti-structure. Cornell University Press, 1969.
20. Van Gennep, A. Les rites de passage [The rites of passage]. – Paris: Émile Nourry, 1909.

## İnformatorlar / *Informants*

İ-1. Abbasova Nailə Paşa qızı, 1982, Naxçıvan MR, Şərur rayonu, orta təhsilli, ev xanımı.
İ-2. Cəlilzadə Mətanət Rəftar qızı, 1960, Füzuli şəhəri, ali təhsilli, müəllimə.
İ-3. Cevher İlknur Ali Osman qızı, 1991, Sivas şəhəri, ali təhsilli, müəllimə.
İ-4. Əkbərova Sevinc Cavad qızı, 1971, Naxçıvan MR, Ordubad rayonu, Yuxarı Əylis kəndi, orta təhsilli, iş xanımı.
İ-5. Əkbərova Aynur Cavad qızı, 1975, Naxçıvan MR, Ordubad rayonu, Yuxarı Əylis kəndi, orta təhsilli, aşbaz.
İ-6. Əsədova Könül Hüsaməddin qızı,1983, Naxçıvan MR, ali təhsilli, Şahbuz rayonu Qeydiyyat şöbə müdirəsi.
İ-7. Əsədova Xurşud İbrahim qızı, 1962, Naxçıvan MR, natamam ali təhsilli, ev xanımı.
İ-8. Xanlarova Günay Pənah qızı, 1987, Füzuli şəhəri, natama ali təhsilli, kitabxana işçisi.
İ-9. Mirzəyeva Qumral Nizami qızı, 1987, Naxçıvan şəhəri, ali təhsilli, elmi işçi.

**Роль женщин в ритуалах фольклора: социальные функции и культурная символика**

**Малейка Мамедова**
Доктор философии по филологии, доцент
Института фольклора НАНА
E-mail: meleykememmed1@gmail.com
ORCID: 0000-0001-7714-4668

**Резюме.** Фольклор является важной научной областью, отражающей коллективную память общества, его культурную идентичность и традиционную мудрость. Исследование взаимодействия женщин и ритуалов в этой сфере позволяет глубже понять гендерные роли и культурные смысловые пласты. Женщины в ритуалах часто выступают как творческие и исполнительские фигуры. В данной статье анализируется взаимодействие женщин и ритуалов в контексте фольклора, а также рассматриваются общественные и культурные проявления этого взаимодействия.

Цель исследования – изучить роли женщин в ритуалах, выявить, как они формируются в связи с социальной структурой и ценностями. Особое внимание уделяется месту ритуалов в культурной памяти, функциональному, символическому и общественному значению участия женщин в этих процессах, а также современным проявлениям традиционных практик. Исследование направлено на анализ того, как женские ритуальные практики воспроизводят или трансформируют гендерные роли на основе примеров из различных культурных регионов.

Статья основана на изучении фольклорных текстов и анализе гендерных ролей в ритуалах. Собранный материал охватывает традиционные практики из Азербайджана, Анатолии, Фракии и Балкан. На основе литературного обзора проведена научная оценка роли женщины в ритуалах и их символического значения.

**Ключевые слова:** фольклор, женщина, ритуал, общественная роль, традиционное значение